

Etibar Etibarlı

www.kaspi.az 2 may 2015

## TALEYİM

Tufanmiş sərt qışın oğlan çağında...
(Əzəli qəribə taleyə baxın!)
Küləklər yorulub
səngiyən anda.
Mən də doğulmuşam səhərə yaxın.

Qışım, yazım keçib
taxta beşikdə,
(Yellənən nənnidə yuxu bal dadır.)
Anam əsgər kimi
durub keşikdə,
laylası hələ də qulağımdadır.

Yay gəlib...
Göylərdən od yağan gündə
Tanrı dar ayaqda köməyim olub.
Mənim gəlin anam biçin biçəndə
başının yaylığı
bələyim olub.

Yastığım dərz imiş--
sünbülü dən-dən,
Hoparmış canıma bərəkət ətri.
İpək pərdə kimi buludu hərdən
çəkərmiş üzünə
Gün məndən ötrü.

Qaratikan kolu sığınacağımmış,
kölgəsi çətrimmiş
günorta çağı.
Mənim ən sevimli oyuncağımmış
gülü bənövşəyi
"Gəlinbarmağı".

...Ömürdü, yaşadım.
Nə deyib yozum?
Aza qane oldum- qismətdi, neynək?!
Aşıb-daşmasa da süfrəmdə ruzum,
axdı,
kəsilmədi sısqa bulaqtək!...

*2. 05. 2014.*

* * *

Səhər erkən
hər üçü bir tikə çörək dalınca
işə gedərkən,
qayğılı günlərim düşür yadıma.
Hərəsi bir sükan arxasında,
Nə bilim harda?
Bu nəhəng,
təngnəfəs şəhərin harasında?
Sanıram hərdən
ürəyim çat verib üç yerdən.
Korun-korun qan sızır içimə.
Əlim ürəyimin başında!
Gözüm qapıda qalır,
qulağım səsdə.
Canıma yatmır yediyim çörək də,
aldığım nəfəs də.
Acı xəbərlər daşıyır ekran!
Mən üç balamdan
Və nahaqq qanda çalxanan
dünyadan nigaran!
Fərqi yox fəsillərin-
gün o qədər uzun ki,
Günəş batmaq bilmir.
Axşam
sağ-salamat qayıdanda üçü də
içimə işıq düşür.
Gündüzlər çat verən ürəyim
sanki gecələr bitişir!

*30. 11. 2014.*

## ŞƏMŞİR OCAĞI

Bir ocaq ki, haqq nurundan güc ala,
Səmum əssə, titrəməz o, sönməz o!
Bir heykəl ki ürəklərdə ucala,
Əl çatmayan zirvəsindən enməz o!

Bir gülüstan yaratsa da hər fəsil.
Üzə gülsə dünyanın dörd bucağı,
Torpağımtək mənim üçün, ey qafil,
Müqəddəsdir Dədə Şəmşir ocağı.

Tütyə götür, pak ruhuna dua et,
Dərd qalmasın bircə qətrə canında.
Sonra yanan o işığa doğru get,
Çətin anda haqq duracaq yanında.

Tükənməyən çeşməsindən su içsək,
Söz oynadıb, biz də dil-dil ötərik.
Alışarıq qara sazın simitək,
Saf ürəklə bu dünyadan köçərik.

*24. 07. 2013.*

## BİR KƏLMƏ SÖZ

N. M.

Sarışın tellərin qıvrılıb dən-dən,
Zərif yanağında xalların tək-tək...
Sən bu ağ xalatda
yaz səhərində
Günə gülümsəyən çiçəksən, çiçək.

Mənə "can, can" dedin--
isindi qəlbim,
itdi ağrılarım sanki bir anlıq.
Zülmət Yer üzünə kəsilər qənim,
olmasa mərhəmət,
ülfət,
insanlıq.

Şəfqət hissi yoxsa, nə dava-dərman?!
Axı, zəhər kimi həbin nə xeyri?
Bu qədər ürəkdən halıma yanan--
olmayıb "can" deyən
anamdan qeyri.

Köksümdə yara var-
açılıb göz-göz,
Sevgiylə sağalar bu yara bəlkə?!
Dilindən qopan o bircə kəlmə söz
mənimlə bir gedər
məzara bəlkə!?

*29. 07. 2013.*

## ŞAİRLƏR SUSSA

Torpağa can verən, təravət verən
payız yağışı var,
yaz yağışı var.
Nağıllar boğçası qarlı qışın da
donmuş şüşələrdə
buz naxışı var.

Çaşırıq yaz günü tökəndə dolu,
quruyur bir ağac, bir çiçək kolu.
Nədən yorur bizi bu həyat yolu?
Çünki öz enişi,
öz yoxuşu var.

Söz əhli bənzəməz hər küt qansıza,
İncitmə, dodaqdan qoyma qan sıza.
Lüzum yox,qəlbindən keçəni yoza-
Sevənin göz qəlbi,
göz naxışı var.

Namərddən, nakəsdən usanıb küssə,
Dünya lal-kar olar şairlər sussa.
Bölməyin onları yaxşıya, pisə--
Hərənin öz ruhu,
söz naxışı var!...

*10. 12. 2013.*

## ŞƏRİKLİ ÖMÜR

Niyə anlamır bəşər
bir aydın həqiqəti-
Yaradan əsirgəyib,
verməyib son fürsəti!
Yaxşı ki, bu həyatda
əbədi deyil insan.
Yaxşı ki, müəmmadır,
sirdir son nəfəs, son an!
Bilsəydi əbədidir,
ölüm də əfsanədir,
Azar-bezar nə gəzir.
dərddən üzülmək nədir?!
Yer bir yana, göydən də
Ay- uduz qopardı.
Daşdan da, kəsəkdən də
o haqq-hesab sorardı.
...Nə qədər ki, ac nəfsə
sərhəd qoya bilmirik,
Tanrı verdiyi ömrə
şərik çıxacaq, şərik!

*11. 06. 2012.*

* * *

Sənə nə var ki...
Ötəri külək kimi
əsib keçdin.
Dedim nə qalar ki...
Dönüb qara haşiyəli şəkilə
Ürəyimə əbədi köçdün!

*22. 11. 2014.*

* * *

Hansı ildə?
Günün hansı saatında
yazılıb bu misralar?
Unutmuşam tarix qoymağı.
Nə fərqi var axı?
Onsuz da yanlışdı təvəllüdüm.
Kim deyə bilər insan ömrünə
vaxtında gəlir ölüm?!

*22. 11.2014.*

## EL QIZI

*Xanəndə Elnarə Abdullayevaya*

Səsin daşları da muma döndərir,
Əsir muğam üstdə külək, el qızı!
Göylər qəhərlənir-bulud yaş tökür,
Yerdə necə dözsün ürək, el qızı!

Oyadar ruhunu hər qanan kəsin
Dağlara dağ çəkən möcüzə səsin.
Doğma avazına mən qurban kəsim,
Ağlatmaz bir kimsə səntək, el qızı!

Başa bəla olur bəzən baş deyən,
Namərd çox görmüşəm, mərdə təşnəyəm.
Şairəm, əzəldən dərdə təşnəyəm,
Hökmü belə yazıb fələk, el qızı!

Bir ömür yaşadım ağlı-qaralı,
İndi canım xəstə, ruhum yaralı.
Oxu, yol üstdəyəm, vaxtım daralır,
Onunçun kövrəyəm, kövrək, el qızı!

Kişi qeyrətlisən elin gözündə,
Düzsən ilqarında, safsan sözündə.
İsmətin qanında, həyan üzündə,
Nəğməkar mələksən, mələk, el qızı!

Dindir dərdimizi segahın üstdə,
Mənim də laylamı çalıb şikəstə.
Etibarlı olub Etibar dosta,
Bilməyən bilməsin, neynək, el qızı!

*16. 12. 2013.*